525-ci qəzet 16 yanvar 2021-ci il, şənbə

www.525.az Facebook.com/525.az Instagram.com/525ciqezet

# Elçindən Milli Kitabxanaya önəmli töhfə

## XALQ YAZIÇISI AZAD OLUNAN BÖLGƏLƏRDƏKİ KİTABXANALARIN FONDU ÜÇÜN ŞƏXSİ KOLLEKSİYASINDAN 500-ə QƏDƏR NƏŞR HƏDİYYƏ ETDİ







Mədəniyyət Nazirliyi və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası azad olunan rayonlarımızda işğaldan əvvəl fəaliyyət göstərmiş 900-dən artıq kitabxananın erməni vandalları tərəfindən tamamilə dağıdılaraq məhv edilmiş kitab fondlarının yenidən bərpası məqsədilə ziyalılardan, ayrı-ayrı təşkilatlardan, nəşriyyatlardan və bütün vətəndaşlardan kitab toplanması kampaniyasına başlayıb. Bu kampaniyaya qoşulan Xalq yazıçısı Elçin Milli Kitabxanaya gələrək öz şəxsi kolleksiyasından 500-ə yaxın kitabı işğaldan azad olunan kitabxanaların fondu üçün hədiyyə edib.

AZƏRTAC xəbər verir ki, kitabların təqdim edilmə mərasimində Milli Kitabxananın direktoru Kərim Tahirov bu təşəbbüsün əhəmiyyətini vurğulayıb. Bildirib ki, kitabların təqdim edilmə mərasiminin keçirilməsi nəinki ölkəmiz, həm də bütün dünya üçün vacib olan bir məlumatdır. Çünki 30 illik işğal nəticəsində ərazilərimizdə mədəni abidələrimiz, kitabxanalarımız və külli miqdarda kitablarımız qalıb. Erməni vandalları bütün mədəni irsimizi dağıdıb. Ancaq 44 günlük müharibədən sonra Ali Baş Komandanın rəhbərliyi və şanlı Ordumuzun şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olunub və doğma əzəli Azərbaycan ərazisi öz sahibinə qaytarılıb.

Qeyd edib ki, azad olunan rayonlarda aparılan baxış zamanı məlum olub ki, ermənilər nəinki torpaqlarımızı ələ keçirmiş, hətta mədəni sərvətlərimizi, tarixi abidələrimizi viran qoyublar və işğal olunmuş torpaqlarda Azərbaycanın izini tamamilə silməyə çalışıblar. Kərim Tahirov söyləyib ki, Prezident İlham Əliyev Füzuli və Cəbrayıla səfəri zamanı ermənilərin dağıtdığı binaların yerində duraraq "Baxın ermənilər kimdir, onların xisləti nədir. Amma biz azərbaycanlılar buranı bərpa edəcəyik", - deyə dünyaya müraciət edib.

Qeyd edib ki, Azərbaycan Milli Kitabxanası Mədəniyyət Nazirliyi ilə birlikdə dövlətimizin başçısının bu çağırışına qoşularaq dövlətə köməklik göstərəcəyini qərar verib: "Azad olunmuş torpaqlarda 975 kitabxana var idi və onların fondunda 4 milyon 600 min kitabxana olub. Buna görə də Azərbaycan xalqının üzərinə böyük bir missiya düşür. Biz Azərbaycan hökumətinə kömək etməliyik. Həmin kitabxanalar bərpa olunduqca onların fondu üçün indidən kitabtoplama kampaniyasına başlamalıyıq".

Xalq yazıçısı Elçin çıxış edərək Ali Baş Komandanın rəhbərliyi və Azərbaycan Ordusunun rəşadəti ilə qazanılan tarixi Qələbə haqqında fikirlərini bölüşüb. Yazıçı bildirib ki, ötən il insanlarımıza çətinliklərlə bərabər, sevinc hissi də yaşadıb. Qeyd edib ki, Prezident İlham Əliyevin ortaya qoyduğu iradə və Ordumuzun şücaəti Qarabağı düşmən işğalından xilas edib. "Bu tarixi bir gündə məni sevinc hissi ilə yanaşı, dəhşət də basır. Elə bil insanın uzun illər qoruduğu kəhrəba içində saxladığı buğda zəmisindən çəyirtkə dəstəsi keçib. Bu erməni xislətinin göstəricisidir. Düşünürəm ki, həmin kitabxanalarda saxlanılan beş milyona yaxın kitab Azərbaycan dilində olduğu üçün yandırılaraq məhv edilib. Bu mədəniyyətə, mənəviyyata olan bir təcavüzdür".

Yazıçı Mədəniyyət Nazirliyi və Milli Kitabxananın irəli sürdüyü bu təşəbbüsü əhəmiyyətli bir addım hesab edib və bu təşəbbüsün mənəvi bir axına çevrilməsini arzulayıb. "İnanıram ki, bir əsrə yaxın bir zamanda yaratdığımız bu kitabxanaları 3 ilə bərpa edəcəyik", - deyə Elçin əlavə edib.

Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə Xalq yazıçısı Elçinin bu təşəbbüsə ilk qoşulmasının təsadüf olmadığını diqqətə çatdırıb: "Elçin müəllim atası İlyas Əfəndiyev kimi əsərlərində daim Qarabağın kolorotini, onun təbiətini, füsunkarlığını qələmə alıb. Mən Elçin müəllimin hələ gənclik illərimdə oxuduğum "Şuşaya duman gəlib" hekayəsini, "Bayraqdar" və digər əsərlərini xatırlayıram. Buna görə də arzu edirəm ki, Şuşada və eləcə də Füzulidə bərpa olunacaq kitabxanalarda Elçin müəllimin kitablarından ibarət guşə yaradılsın və bu təşəbbüsü ilk olaraq Elçin müəllimin başlatdığı orada qeyd olunsun".

Sonda Kərim Tahirov Xalq yazıçısı Elçinə bu nəcib addımı üçün təşəkkür edərək, bütün Azərbaycan ictimaiyyətini, xaricdə yaşayan həmvətənlərimizi, ziyalılarımızı, yazıçı və şairlərimizi fəal şəkildə bu aksiyaya qoşulmağa çağırıb.

Qeyd edək ki, hədiyyə olunan kitablar sırasında Elçin Əfəndiyevin 10 cildliyi də var.